# Hədəfi qüdrətli Azərbaycan olan

# MÜDRİK LİDER



*"Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

**2024-cü il fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib**

Ulu öndər Heydər Əliyevin 22 il öncə böyük uzaqgörənlik, müdrikliklə söylədiyi bu fikirlər müasir müstəqil Azərbaycanın bugünkü reallığında öz əksini tapır. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında dayanır, bölgədə və dünyada regional liderliyini təmin edib. Bu gün bütün dünyada adı hörmətlə çəkilən, böyük nüfuz sahibi olan Azərbaycan Prezidenti xalqına bağlılığı, millətsevərliyi, dövlətçiliyimizə sədaqətlə xidməti ilə ölkəni inkişafa və tərəqqiyə aparır. Bir çox ölkələr etibarlı tərəfdaş, humanist siyasət həyata keçirən Azərbaycanla ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlıq əlaqələri yaratmaq istədikləri kimi, dünya liderlərinin əksəriyyəti də cənab İlham Əliyevlə səmimi dostluq münasibətləri qurmağa çalışırlar. Ulu Öndər siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev həyatını dövlətçiliyin möhkəmlənməsinə, xalqının tərəqqisinə həsr edən müdrik siyasətçi, yüksək liderlik keyfiyyətinə malik, uzaqgörən, sözü imzası qədər keçərli, qətiyyətli, cəsarətli dövlət başçısıdır. Məhz bu xüsusiyyətlərinə görə xalqımız öz rəhbərinə etimad göstərir, taleyini ona həvalə edərək gələcəyə birgə addımlayır.

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasına prezident seçkilərində seçicilərin 76 faizindən çoxu böyük inamla Ümummilli Liderin siyasi varisi İlham Əliyevə etimad göstərdi. Xalq bu seçimi, düzgün qərarı ilə Heydər Əliyev siyasətini bir daha dəstəklədi, sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs verdi. Respublikamızın inkişafı yolunda əlindən gələni əsirgəməyəcəyinə, dövlətinə, xalqına sədaqətlə xidmət edəcəyinə and içən İlham Əliyev Ulu Öndərin işıqlı ideyalarını rəhbər tutaraq vəzifəsini icra etməyə başladı. Düşünülmüş siyasət nəticəsində xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsində böyük nailiyyətlər əldə olundu, dünyanın sayılıb-seçilən dövlətləri ilə, nüfuzlu təşkilatlarla əlaqələr möhkəmləndirildi. Ümumi Daxili Məhsul artdı, respublikamız iqtisadi artım sürətinə görə dünyada ilk yerlərdə qərarlaşdı, qeyri-neft sektoru inkişaf etməyə başladı, özəl sektora xüsusi diqqət göstərildi. Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə 4 beynəlxalq hava limanı istismara verildi. 700 meqavat gücündə 8 elektrik stansiyası tikilməsi nəticəsində Azərbaycan özünü elektrik enerjisi ilə tam təmin etməklə bərabər, həm də enerji ixracına başlandı, minlərlə kilometr yollar salındı.

**(davamı 4-cü səhifədə)**

# Hədəfi qüdrətli Azərbaycan olan

# MÜDRİK LİDER



## 2024-cü il fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib

(əvvəli 1-ci səhifədə)

Həmin illərdə ordu quruculuğu prosesi sürətlə həyata keçirildi, silahlı qüvvələrin hazırlıq, peşəkarlıq səviyyəsi yüksəldi, hərbi xərclər artırıldı. Keçmiş məcburi köçkünlərin problemlərinin həll edilməsi istiqamətində böyük əməli fəaliyyət göstərildi, çadır şəhərciklərini müasir binalar əvəz etdi. Təhsil, səhiyyə, mədəniyyət, idman sahəsində ciddi dəyişikliklər müşahidə olundu. 1600 yeni məktəb, 240-dan çox tibb müəssisəsi, 14 müasir olimpiya-idman kompleksi tikilib istifadəyə verildi. Həmçinin "Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" (2004-2008-ci illər) çərçivəsində bölgələrdə iri infrastruktur layihələri həyata keçirildi. "Azərbaycanda 2007-2015-ci illər üçün Yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" uğurla yerinə yetirildi. Ermənistanın işğalı altında olan torpaqların azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası dövlət siyasətinin ən əsas istiqaməti olaraq müəyyənləşdirildi. Dövlət başçısı xalqımızın taleyüklü məsələsinin sülh yolu ilə, yalnız və yalnız ölkənin ərazi bütövlüyü çərçivəsində həlli üçün var qüvvəsi ilə çalışdı. Hər bir azərbaycanlının prezidenti olacağına söz verən dövlət başçısı verdiyi sözü əməli ilə təsdiq etdi. Nəinki hər bir Azərbaycan vətəndaşının prezidenti oldu, onun arzularının reallaşmasını, inkişaf yoluna çıxmış dövlətdə, xoşbəxt bir cəmiyyətdə yaşamasını təmin etdi. Bütün bunlar müstəqil Azərbaycanın tarixində yeni bir mərhələ açmaqla bərabər, həm də xalqımızda qəti əminlik yaratdı ki, o, öz liderini seçməkdə yanılmayıb, doğru, düzgün qərar verib.

15 oktyabr 2008-ci ildə keçirilən Prezident seçkilərində xalq yenidən öz səsini qarşıdakı illərdə daha böyük nailiyyətlərə, xoş günlərə verdi. Seçicilərin 88,73 faiz səsini toplayan İlham Əliyev növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. 24 oktyabr 2008-ci ildə Heydər Əliyev Sarayında təntənəli andiçmə mərasimində cənab İlham Əliyev demişdir: "Mən bu gün, andiçmə mərasimində son beş il ərzində mənə göstərilən dəstəyə görə, inama görə, etimada görə doğma xalqıma bir daha minnətdarlığımı bildirirəm. Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da Vətənimizin uğurlu inkişafı üçün, Azərbaycanın çiçəklənməsi üçün mən əlimdən gələni əsirgəməyəcəyəm, Azərbaycan xalqına bundan sonra da xidmət edəcəyəm".

Ölkəmizə rəhbərliyinin ikinci mərhələsində Prezident İlham Əliyev Azərbaycanın inkişaf yolu ilə sürətlə irəliləməsi, daha da güclənməsi üçün demokratiya, insan hüquqları, hüquqi dövlət quruculuğu ilə bağlı bütün addımların atılmasını, iqtisadi-siyasi proseslərin müsbət istiqamətdə getməsini, beynəlxalq əlaqələrin genişləndirilməsini əsas vəzifə olaraq qarşıya qoydu və bütün vəzifələr uğurla yerinə yetirildi. Həmin dövrdə Azərbaycan Respublikası 155 ölkənin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlar tərəfindən keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün addımlar atıldı, qətnamələr qəbul edildi, rəsmi Bakı diplomatik səylərini daha da artırdı. Ordu quruculuğu prosesi sürətləndi, hərbi-sənaye kompleksi yaradıldı, onlarla zavodda 750 adda hərbi təyinatlı məhsulların istehsalına başlandı, hərbi büdcə 20 dəfədən çox artırıldı. Bütün bunlarla yanaşı, mühüm iqtisadi islahatlar aparıldı, xarici dövlət borcu təxminən Ümumi Daxili Məhsulun 7-8 faizini təşkil etdi.

Azərbaycan xalqı böyük səy, qətiyyət, prinsipiallıq, diplomatik məharət tələb edən bütün bu işləri yüksək qiymətləndirərək 2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə 84,54 faiz səslə İlham Əliyevi yenidən ölkəyə rəhbər seçdi. Bu seçim əslində xalqımızın gələcəklə bağlı fikirlərini, arzularını ifadə edirdi. Tarix boyu bütün çətinliklərdən mətanətlə çıxan, düşmən qarşısında əyilməyən, azadlığı, istiqlaliyyəti uğrunda dönmədən mübarizə aparan Azərbaycan xalqı bütün bu proseslərin gedişində sabaha ümidlə baxır, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa olunacağına inanırdı. Fikrini, əqidəsini, amalını dəyişmədən ulu öndər Heydər Əliyevin siyasi xəttini yüksək liderlik bacarığı ilə həyata keçirən İlham Əliyevi ölkəyə rəhbər seçməklə xalq məhz bu arzusunun reallaşacağına əmin idi.

2018-ci il aprelin 11-də Azərbaycan tarixində ilk dəfə növbədənkənar Prezident seçkiləri keçirildi. Seçicilərin 86,02 faiz səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev xalqa müraciət edərək demişdir: "Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik". Dövlət başçısı çətin, məsuliyyətli, şərəfli işində hər zaman xalqından güc aldığını, Xalq-Lider birliyinin müstəqil Azərbaycanın inkişaf yolunda mayaka çevrildiyini qürurla bildirdi və bundan sonra daha böyük uğurlara imza atılacağına əminliyini ifadə edirdi. Sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş xalqımızın qürurlu, sevincli günlər yaşaması, qələbələrə doğru irəliləməsi üçün əlindən gələni edəcəyinə söz verdi. Dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasında olan Azərbaycanın iqtisadiyyatının 3,2 dəfə artdığını, rəqabətqabiliyyətliliyinə görə 35-ci yerdə dayandığını, kosmik dövlətə çevrilən ölkənin nəhəng enerji və nəqliyyat layihələrinin həm təşəbbüskarı, həm də icraçısı olduğunu bildirdi. Dövlət başçısı nitqinin sonunda qətiyyətlə bildirdi ki, bizim taleyimiz öz əlimizdədir və bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik.

Bəli, Azərbaycan əsrlərin, qərinələrin yaddaşına yazılan tarixi qələbə qazandı. 2020-ci il sentyabrın 27-də xalqımız "dəmir yumruğ"a dönərək cəmi 44 gün ərzində düşməni qarşısında diz çökdürdü, taleyini etibar etdiyi, həyata keçirdiyi siyasəti dəstəkləyərək hər zaman arxasında dayandığı Liderinin rəhbərliyi ilə erməni işğalına son qoydu. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin mükəmməl strategiyası, siyasi, hərbi manevrləri, güclü iradəsi, xalq-iqtidar birliyi təcavüzkar Ermənistanı 2020-ci il noyabrın 10-da kapitulyasiya aktı imzalamağa məcbur etdi, Ağdam, Kəlbəcər və Laçın hərbi əməliyyatlarsız geri qaytarıldı. Yüksək tribunalarda dönə-dönə "Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik" deyən dövlət başçısı Qarabağ və Şərqi Zəngəzuru düşmən əsarətindən azad etməklə həm də 30 il yurd həsrəti çəkən insanların qürurunu, mənliyini özünə qaytardı. Azərbaycan Qarabağ zəfəri ilə dünyaya səs saldı. Bütün beynəlxalq aləm bir daha şahid oldu ki, Azərbaycan güclü, qüdrətli, müstəqil dövlətdir.

Qətiyyətli, iradəli, uzaqgörən, yüksək idarəetmə məharətinə malik lider, müdrik siyasətçi Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xalqın mənafeyini hər şeydən üstün tutan dövlət başçısı ali diplomatiyasında dövlətimizin maraqlarından çıxış edir, ulu öndərin şah əsəri olan müasir müstəqil Azərbaycanı daha da gücləndirmək, müəyyən edilən hədəflərə çatmaq üçün var qüvvəsini sərf edir. Rifaha, tərəqqiyə, uğurlara söykənən parlaq qələbələrimizin müəllifi olan Prezidentə xalqın inamı, etibarı, etimadı da məhz bu amildən qaynaqlanır.

2024-cü il fevralın 7-də bütöv Azərbaycanın hər bölgəsində keçirilən növbədənkənar prezident seçkilərində bu, bir daha öz təsdiqini tapdı. Seçicilərin 92,12 faiz səsini qazanaraq 5-ci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin fevralın 14-də Milli Məclisdə andiçmə mərasimi keçirildi. Mərasimdə söylədiyi nitqində dövlət başçısı 2003-cü ildə hakimiyyətə gəldiyi vaxtdan xalqa verilən bütün vədlərin yerinə yetirildiyini, qarşıya qoyulan məqsədlərə nail olunduğunu, böyük nailiyyətlərə imza atıldığını bildirdi. Ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin tam bərpasından fəxarətlə danışan dövlət başçısı xalqımızın şanlı tarixinə yazılan İkinci Qarabağ müharibəsindən ötən dövr ərzində həyata keçirilən işlərdən, dövlətimizin prinsipial siyasətindən, qarşıda duran əsas vəzifələrdən, ən vacib məsələ olan Ordumuzun daha da gücləndirilməsinin, sərhədlərimizin qorunmasının vacibliyindən danışdı. İkinci ən mühüm vəzifənin Qarabağ və Şərqi Zəngəzurun bərpası olduğunu vurğulayan Prezident bütün bu işlərin həyata keçirilməsində milli birliyin, həmrəyliyin düşmən qüvvələrin qarşısında keçilməz sədd çəkdiyini dedi: "İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub".

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2025.- 14 fevral (№ 32).- S.1;4.